Ədalət.- 2020.-29 fevral.-S.14



Akif Cabbarlı

# Həyat etüdləri

## Həftəaşırı rütbə artımı

Ötən əsrin yetmişinci illərində kəndlərimizdə yaşayan ağsaqqalların "idarənin qabağı" deyilən kimgə yerlərində toplaşdığı çay məclislərinin tələbə qonağı olmağımızın ləzzətini indi də yaşayırıq. Yay tətillərində Qəbələdən savayı digər yerlərə də yolum tez-tez düşərdi. Düzdü, o vaxtlar babat vəzifədə işləyən, yüksək gəlirinə və insafına görə bütün ailəyə əl tutan əmim Ələsgərə yol yoldaşı gərək olanda Sovetlər İttifaqının seçmə şəhərlərini də gəzib-dolaşırdım.

Yayın qızmar günlərinin birində ucqar dağ rayonunun səfalı guşəsinə Bakıdan təşrif buyuran bir neçə ziyalı və tələbə dostlarımla birlikdə ağsaqqalların cəm olduğu kənd çayxanasına baş çəkib həm yanğımızı söndürməyi, həm də hələ xoruz səsi eşitməmiş əhvalatlardan xəbərdar olmağı qərara aldıq. Elə təzəcə oturmuşduq ki, çayxanaya hər kəsin böyük hörmət bəslədiyi Ağaşükür kişi də gəlib çıxdı. Ayağa qalxıb böyük ehtiramla ağsaqqalı öz stolumuza dəvət etdik. Razılığını bildirdi, stul çəkib əyləşdi, əlindəki əsanı da stolun küncünə söykədi. Sonra kəndin ən baməzə sakinlərindən olan aqronom Fəxrəddin də yanımıza gəldi. Pürrəngi çaydan ləzzətlə dadıb şirin söhbətə başladıq.

Fəxrəddin qəfildən ortaya bir sual atdı:

-Ay Ağaşükür kişi, müharibənin odundan-alovundan keçmisən, ayağının birini də oralarda qoyub gəlmisən. O kişilər ki gəlmişdi ha sənin yanına, necə olmuşdu axı?..

-Hə, ay Fəxi, neçə dəfə danışmışam sənə, yenə məni söylədirsən?

-Yox, səncanın, Şurik (kənddə ağsaqqalı bəzən zarafatla belə çağırırdılar), bir də danış, qoy bu cavanlar da eşitsin.

-Belə olmuşdu da, Fəxi. Deməli, Şimali Qafqazda vuruşurdum. Qızğın döyüş gedirdi. Pulemyotumla biçirdim nemesləri, lap çəyirtkə kimi qırılırdılar. İşin şirin yerində arxadan çiynimə kiminsə ağır, sanballı əli oturdu. Çevrilib arxamda kimləri görsəm yaxşıdır - Bığlı ilə Ağanı. Yəni ki, yoldaş Stalinlə Mircəfər Bağırovu. Amma əməliyyatı dayandırmadım, ustav buna yol vermir axı. Müharibənin öz qanunları var, belə şeyləri siz qanmazsınız. Hə, nə isə, Stalin yoldaş qayıdıb dedi ki, Şurik, tı bereqi sebya, tak je nelzya. Ağa da öz dilimizdə məni başa saldı ki, yoldaş Stalin səndən ötrü narahatdır, özünü qoru. Axı, Şimali Qafqaz cəbhəsini sənə arxayınıq. Mən də cavab verdim ki, canım sizə qurbandır, amma mənə mane olmayın, qoyun ürəyim soyuyanadək nemes qırım, sonra söhbətimizi davam etdirərik.

Fəxi dözmədi, tələm-tələsik ortaya bir sual da qovzadı:

-Sonra nə oldu, Şurik, bəs sonra?..

-Sonrası o oldu ki, başımı qatdılar, nemes də o tərəfdən bir güllə vızıldatdı, gəlib sol qılçamın tən yarısını apardı.

Fəxrəddin bic-bic güldü, solaxay bir sual da verdi kişiyə:

-Şurik, sən müharibədə hansı rütbəni daşımısan?

-Mayor olmuşam, bala.

-Axı, keçən həftə leytenant deyirdin, nə oldu, bir həftəyə mayor oldun?

-Ə, get işinlə məşğul ol, gələn həftə sənin acığına polkovnik olacağam.

Ağaşükür kişi bu sözləri zarafatla, yoxsa ciddi dedi, heç birimiz kəsdirə bilmədik. Çayımızı içib dinməz-söyləməz dağılışdıq.

## "...Şalvarında qırmızı yox, belində də tapançası"

İndi tanış olacağınız əhvalat Sovetlər İttifaqı dövründə Qəbələdə baş verib. O vaxtlar kəndimizin üzdə olan kişiləri danışmışdılar mənə və hələ də onların üstünə azdan-çoxdan qoyub-qoymadıqlarını dəqiq bilmədiyim hadisənin təfərrüatlarını unutmamışam.

Deməli, qışın oğlan çağında gecə yarısı kolxoz fermasının ərazisindəki ot və küləş tayalarına od düşür. Yanğınsöndürənlər vaxtında gəlsə də, tayalıqda qalaq-qalaq küldən başqa bir saman çöpünün də qalmadığının şahidi olurlar. Rayonun rəhbər işçiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, digər müvafiq qurumların nümayəndələri tələm-tələsik özlərini hadisə yerinə çatdırırlar. O vaxtlar belə olaylar çox vaxt sabotaj kimi qələmə verilir, kiminsə kiməsə düşmənçiliyi kimi yozulurdu. Təbii ki, bu yanğının da səbəb və nəticələri ciddi yoxlama və istintaq tələb edirdi. Bunu kənddə hər kəs, xüsusən də kolxoz rəhbərləri dəqiq bilirdi. Odur ki, hamının üzündə bir kədər, pərişanlıq hissi duyulurdu. Bir də ki, yem tayalarının bir gecədə yox olması mal-qaranın qışdan salamat çıxmasını ciddi tərzdə şübhə altında qoyurdu.

Bəli, sübh tezdən rayon mərkəzindən gələnlər və kənd əhli bir nəfər kimi yanğın baş verən ərazidə toplaşmışdı. İlk dindirmələr də elə kösöv kimi qapqara qaralmış yanğın ərazisində başlayır. Milis (o vaxtlar polis belə adlanırdı) rəisi əvvəlcə fermanın gecə qarovulçusunu çağırtdırır. İki yekəpər serjant kəndin dəli-dolu oğlnlarından sayılan zorba, pəhləvan cüssəli Etibarın qolundan yapışıb rəisin yanına gətirirlər. Amma xasiyyətinə bələd olduqlarından bir qarış da geri çəkilmirlər ki, əlindən xəta çıxar. Rəis hirsli-hikkəli baxışları ilə Etibarı süzüb "ə, niyə yandırdın tayaları, kolxozun mal-qarası qışın zalhazalında basıb səni yeməlidi, yoxsa?.." - deyə əlini qaldırıb Etibara tərs bir şapalaq ilişdirmək istəsə də, alınmır. Etibar başını sürətlə yana qovzayır və şillə yanındakı serjantın sifətində partlayır. Bu mənzərə onsuz da pərt vəziyyətdə olan camaatın qanını lap qaraldır. Hər kəs ürəyində fikirləşir ki, Etibar üç il-beş il getdi barmaqlığın dalına. Rəis isə daha dinmir. Bu dəfə onunla yanaşı dayanıb mənzərəni sakitcə seyr edən səliqə-sahmanlı, ucaboy kişi dillənir:

-Ay Etibar, düzünü de, təqsirindən keçərik. Aç de, səni kim öyrədib, bəlkə sədrdən xoşun gəlmir? Eləsə, dəyişərik, çıxar gedər işinin dalınca, kimi də istəsən, yerinə qoyarıq.

Etibar gözünü yumub gül ağzını açır, necə açır:

-Ə, zırrama, sən kimsən axı? Yoldaş naçalniklə özümüz bilərik. İndi şilləsi boşa çıxdı, canı sağ olsun, aparar qoduqluğa salar, orada məsələni çürüdərik. Tayaları mən yandırmamışam, bu işi də naçalnik özü aydınlaşdırar, İnşallah. Sən kimsənsə bilmirəm, get öz işinlə məşğul ol.

Kolxoz sədri tez Etibara yaxınlaşıb qulağına nə isə pıçıldayır. Dostumuz bu dəfə də qabağından yemir.

-Ə, noolar prokuror köməkçisi olanda, gəlsin minsin boynuma. Haradan bilim kimdir axı... Çiynində paqonu yox, şalvarında qırmızısı, belində də tapançası (Etibar bu sözü o vaxt ayrı cür ifadə eləmişdi). Adam kimi geyinsin, bilək dana kimdir, nəçidir, toya-zada gəlməyib ki...